# Azərbaycan tarixi ədaləti təkbaşına bərpa etdi

**Ötən il Azərbaycanın əks-həmlə əməliyyatları ilə Vətən müharibəsinə başlaması təsadüfi deyildi. Çünki Ermənistan 30 ilə yaxın bir dövrdə torpaqlarımızı işğal altında saxlamaqla bərabər, sülh prosesini də məqsədyönlü şəkildə pozmaqda davam edirdi. Düşmən ölkənin məqsədi işğal ilə bağlı status-kvonu qorumaq və həmin ərazilərin ilhaqına nail olmaq idi. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri bilərəkdən danışıqlar prosesinin format və mahiyyətini də sarsıdırdı.**

> *Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik.*
>
> *İlham ƏLİYEV*
> *Azərbaycan Respublikasının Prezidenti*

Bəzi xarici ölkələr, təşkilatlar, siyasi dairələr Azərbaycana deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı məlum dörd qətnaməsini özü icra etdi.

Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğal altında saxlaması bir daha göstərdi ki, beynəlxalq hüquq işləmir və ona riayət olunmur. Güc amili beynəlxalq münasibətlərdə ön sıraya çıxır. Azərbaycan isə öz gücünü məhz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, beynəlxalq hüququn normaları çərçivəsində istifadə etdi. Bu işğalçını "Sülhə məcburetmə" əməliyyatı idi.

Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində ölkəmizin beynəlxalq səviyyədə mövqeləri gücləndiyi üçün beynəlxalq ictimaiyyət Azərbaycanın Vətən müharibəsinin beynəlxalq hüquqa uyğun olduğunu anlayışla qəbul etdi.

Prezident İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən, bu barədə ətraflı danışdı. Dövlətimizin başçısı çıxışında Azərbaycanın bütün imkanları ilə sülhə və təhlükəsizliyə töhfə verməyə çalışdığını diqqətə çatdırdı. Ölkə rəhbəri dedi: "BMT ilə bizim fəal qarşılıqlı əlaqəmiz Ermənistanın təcavüzü nəticəsində başlamışdır və 1993-cü ildə Təhlükəsizlik Şurasının məşhur qətnamələri qəbul olunmuşdur. Bu, çox müsbət addım idi, erməni təcavüzünə toxunulacaq bizə dəstəyin çox ümidverici bir jesti idi. Bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi".

Dövlətimizin başçısı daha sonra təəssüflə bildirdi ki, Azərbaycan 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğala məruz qalan ərazilərimizin azad olunması üçün daim diplomatik təmkin nümayiş etdirirdi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşırdı. Lakin bunun müqabilində düşmən ölkəyə ciddi beynəlxalq təzyiqin göstərilməməsi vəziyyəti getdikcə gərginləşdirirdi. Ermənistan bütün bunlar azmış kimi, Birləşmiş Millətlət Təşkilatının (BMT) hələ 1993-cü ildə qəbul edilən 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan işğal altındakı ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərini yerinə yetirməyin əvəzinə yeni torpaqlar ələ keçirməyə cəhd göstərir, bununla bağlı təxribatlar törədirdi. İşğalçı ölkənin keçmiş rəhbərləri, eləcə də baş nazir Nikol Paşinyan tərəfindən Azərbaycan daim müharibə ilə hədələnirdi. Məsələn, Nikol Paşinyan hələ baş nazir seçilməmişdən əvvəl, Ermənistanın parlamentinə müraciətində Azərbaycanın işğal olunmuş ərazilərində qurulan qanunsuz rejimin danışıqlarda iştirak etməsi məsələsini qaldırır, Dağlıq Qarabağda "düşmənin qarşısının alınması" mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparır, ayrı-ayrı vaxtlarda "Artsax Ermənistandır, nöqtə" kimi təcavüz xarakterli şüarlar səsləndirirdi. Eyni zamanda, Livandan olan erməni ailələrinin Şuşa şəhəri daxil olmaqla işğal olunan ərazilərdə məskunlaşmasına şərait yaratmaqla qanunsuz məskunlaşma siyasəti reallaşdırırdı.

Onu da qeyd edək ki, Azərbaycan Vətən müharibəsi başlanana qədər Ermənistanın saysız-hesabsız fitnəkarlıqlarının qarşısını almışdı. Lakin buna baxmayaraq, işğalçı dövlət sərhədinin Tovuz rayonu istiqamətində ermənilərə verdiyi dərsdən, eləcə də Aprel döyüşləri və Günnüt əməliyyatından nəticə çıxarmayaraq, Gəncə şəhərini raketlə vuracaqları ilə bağlı ölkəmizə yenə də növbəti hədə-qorxu gəlməkdən çəkinmirdi. Ancaq düşmən Azərbaycanın istənilən təhdidə adekvat cavab vermək gücündə olduğunu və heç bir qüvvənin işğal altındakı torpaqları azad etməyə mane ola bilməyəcəyini isə unudurdu. Həmçinin Nikol Paşinyan Şuşada yallı gedəndə, separatçı rejimin qondarma "prezidentinin" andiçmə mərasimində iştirak edəndə xalqımızın səbr kasasının bir gün daşacağını da anlamırdı.

Burada bir məqamı da qeyd etmək istərdik. Belə ki, işğalçı tərəfindən beynəlxalq hüquq normalarına zidd bəyanatlar səsləndirilməsi, təxribatlar törədilməsi qarşısında ATƏT-in Minsk qrupu həmsədrlərinin susması, heç bir fikir, münasibət bildirməməsi təəccüb doğururdu. Əslində münaqişənin həlli ilə birbaşa məşğul olan Minsk qrupu, eləcə də beynəlxalq təşkilatlar bununla bağlı Ermənistan hakimiyyətindən izahat tələb etməli idilər. Amma erməni fitnəkarlığının susqunluqla qarşılanması təəssüf hissi doğururdu.

Prezident İlham Əliyev BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə söhbətində adı çəkilən nüfuzlu təşkilatın Azərbaycanın işğal altındakı ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərini yerinə yetirilməsi ilə bağlı məhşur qətnamələrin icrasına toxunaraq, deyib: "Xüsusilə bizi narahat edən və Azərbaycan cəmiyyətinin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edənlər, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü ATƏT-in Minsk qrupuna həmsədr olan və hələ də həmsədrlik edən ölkələrdir. Onlar özləri bu qətnamələri qəbul etmişdir. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi. Lakin, əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib. Bir çox hallarda mən Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məsələsini qaldırmışdım. Çünki düşünürdüm ki, bu, toqquşmanın, müharibənin qarşısının alınması üçün bir yol ola bilərdi. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik. Ötən il, müharibədən cəmi bir neçə gün əvvəl, Baş Assambleyada çıxış edərkən mən beynəlxalq birliyi xəbərdar edərək, Ermənistanın müharibəyə hazırlaşdığını dedim. Bu, təbliğat deyildi, Ermənistanın müharibədən əvvəlki aylar ərzində davranışının real təhlilinin nəticəsi idi…".

Dövlətimizin başçısı çıxışında, həmçinin bildirib ki, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizindən işğalçını geri çəkilməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi. Bax, elə məhz buna görə də müharibəyə görə məsuliyyət təkcə Ermənistanın deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi, ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdi.

Silahlı Qüvvələrimiz 44 günlük savaşla dövlətçiliyimizin ən şərəfli səhifələrini yazdı və əldə etdiyi tarixi Zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoydu. Bir güllə atmadan, bir şəhid vermədən Ağdam, Kəlbəcər və Laçını işğaldan azad etdi və dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü yenidən təsdiqlədi.

Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən 2020-ci il noyabrın 10-da bəyanatın imzalanması ölkəmizin işğalçı üzərində tarixi qələbəsini rəsmiləşdirdi. Bununla da müharibənin hərbi mərhələsi başa çatdı, münaqişənin uzunmüddətli həllinə nail olundu və bölgədə dinc yanaşı yaşamaq üçün əsas yaradıldı.

Yeri gəlmişkən, ordumuzun Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırmasını şərtləndirən bir neçə amili də diqqətə çatdırmaq istərdim. Bunlara işğal dövründə Silahlı Qüvvələrimizin döyüş hazırlığının bütün tələblərini yerinə yetirmək üçün şərait yaradılması, irimiqyaslı təlimlərin keçirilməsi, ordunun Ali Baş Komandanın diqqəti və səyi nəticəsində müasir silahlarla silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsi daxil edilə bilər.

Azərbaycan Ordusunun texniki üstünlükləri işğal olunmuş ərazilərdə düşmənin mühüm obyektlərini darmadağın etməyə imkan verdi. Müharibənin gedişi ərzində bunun dəfələrlə şahidi olduq.

Orduda şəxsi heyətin ruh yüksəkliyini xüsusi qeyd etməliyik. Bu baxımdan Azərbaycan Silahlı Qüvvələri təkcə silah və müasir texnika gücünə yox, həm də yüksək döyüş ruhu, vətənpərvərlik nümunəsi ilə möhtəşəm qələbəni reallaşdırdı. Əsgər və zabitlərimizin fiziki və qəhrəmanlıq gücü hesabına Şuşanın işğaldan azad edilməsi bunun bariz ifadəsi idi.

O da vurğulanmalıdır ki, Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı müasir texnologiyalar əsasında hazırlanmış silahlardan istifadə edərək həyata keçirdiyi hücum taktikası dünya praktikasında ilk oldu – Silahlı Qüvvələrimizin hücum taktikası hərbi mütəxəssislər tərəfindən XXI əsrdə aparılacaq müharibələrin modeli kimi qəbul edildi.

Ermənistan silahlı qüvvələri tərəfindən istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsində əhalimizin sıx məskunlaşdığı yaşayış məntəqələri, təhsil, sosial, mədəni və strateji əhəmiyyətli obyektlər ağır artilleriya qurğularından, xüsusi raket sistemlərindən və qadağan olunan silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutuldu. Nəticədə mülki əhali arasında çoxsaylı ölüm və yaralanma halları baş verdi, yaşayış məntəqələrinə, tarixi və mədəni abidələrə, inzibati binalara, ictimai və digər sosial obyektlərə ciddi ziyan dəydi. Ermənistanın hərbi təcavüzü nəticəsində ölən və yaralananlar arasında çox sayda uşaq və qadınlar da oldu.

Yeri gəlmişkən, London-da fəaliyyət göstərən "EU Today" media platformasında bir müddət bundan əvvəl dərc edilən "Ermənistan Cənubi Qafqazda yeni Srebrenitsa soyqırımı törətmək niyyətindədir?" adlı yazıda müəllif ermənilərin vəhşiliyinin, faşizmi əməllərinin Srebrenitsa soyqırımı ilə müqayisəsini aparıb, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 8-ci maddəsinə əsasən mülki əhaliyə və ya döyüşlərdə birbaşa iştirak etməyən fərdi mülki şəxslərə qarşı qəsdən törədilən hücumların müharibə cinayəti sayıldığını vurğulayıb.

Onu da vurğulayaq ki, Vətən müharibəsində Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən əsgərləri geri çəkilərək döyüş mövqelərini qoyub qaçmaqla savaşda uduzduğunu anlayır, buna görə təxribatlara əl atır, mülki vətəndaşlarımızı atəşə tutur, infrastrukturu dağıdır, beləliklə, qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini bir daha təsdiqləyirdi. Ermənistan ordusu Bakı ətrafına, Gəncə, Mingəçevir başda olmaqla iri şəhər mərkəzlərinə, mülki əhalinin sıx olduğu yerlərə, yaşayış binalarına raket atmaqla faşist xislətini, vandalizmini göstərirdi. Digər tərəfdən, əslində, Ermənistan bu vəhşi, barbar hücumları ilə BMT-ni, beynəlxalq hüququ hədəfə alırdı, saymazlıq göstərirdi.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı Qarabağ bölgəsi və onun ətrafındakı rayonlar şanlı Azərbaycan Ordusu tərəfindən qarış-qarış yağılardan təmizləndikcə xalqımıza məxsus tarix və mədəniyyət abidələrinin vandalizmə məruz qaldığı, yerlə-yeksan edildiyi, bir qisminə isə toxunulmadığı, saxtalaşdırılaraq erməniləşdirildiyi aşkarlandı. Düşmənin ən çox dağıtdığı mədəni irs nümunələri sırasında isə İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri daha çox diqqət çəkdi.



Təəssüf ki, beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın hərbi təcavüzü, yaşayış evlərimizin, mülki infrastrukturun dağıdılması, əhaliyə qarşı yönələn vəhşiliklər susqunluqla qarşılanıb. Prezident İlham Əliyev xanım Vladanka Andreyevanı qəbul edərkən, bu barədə də danışıb, BMT institutları sırasında yer alan UNESCO-nun bu məsələyə laqeyd yanaşmasını təəssüflə diqqətə çatdırıb: "Biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik. Bilmirəm bunu bilirsiniz ya yox biz, bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik. Çünki ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə artıq iki faktaraşdırıcı missiya göndərmişdi. Biz onlardan yenidən bir missiya göndərməyi xahiş etdik, lakin onlar göndərmədilər. Biz UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər. UNESCO rəsmiləri dedilər ki, UNESCO siyasi məsələlərə qarışmır. Lakin, müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Buna görə biz buna razılaşdıq və mənim də bildiyim qədər son məlumat belə idi ki, missiya artıq yaradılıb, amma indi Ermənistan yenə etiraz edir. Buna görə yenə də missiya gecikir".

Azərbaycan bu gün Qarabağ bölgəsinin Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan ağır problemlərini sürətlə aradan qaldırır. Eyni zamanda, həmişə olduğu kimi, yenə də sağlam qonşuluq münasibətlərinin qurulmasının tərəfdarı olduğunu bildirir. Bununla bağlı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulan tədbirlərin reallaşdırılmasını xüsusilə diqqətdə saxlayır. Ölkəmiz bu sənədin tam əməli icrasına və Ermənistan-Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşdırılması əsasında bu qanlı münaqişənin yaralarının sağaldılmasına böyük əhəmiyyət verir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***